*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 81-89*

https://doi.org/10.62837/2024.10.81

**SİMNAR ARIF OĞLU ƏLIZADƏ**
*BDU- nun doktorantı*
*Akademik Zahid Xəlilov küçəsi 23*
*simnarelizade112@gmail.com*

# PREZİDENT İLHAM ƏLİYEVİN İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏKİ NİTQİNDƏ İNFORMATİVLİK

Dil informasiyanın ötürücüsü olmaq funksiyasını cümlələrin köməyi ilə həyata keçirir. Bəzi cümlələr var ki, onların ifadəsində xüsusi məqsədlər var. Bu tip cümlələrin kim tərəfindən ifadə olunması da onun semantika və informasiyasına öz təsirini göstərir. Belə ki, cümlənin ifadə olunduğu üslub və situasiya da önəmlidir. Eyni bir cümlə fərqli dünyagörüş, təhsil, siyasi görüşə malik şəxslər tərəfindən ifadə olunsa da, bəzən onların daşıdığı informativ yük fərqli olur. Bu hal daha çox siyasi natiqlərin, söz ustası olan şair və yazıçıların, politoloqların və s.-nin nitqində və yazılarında özünü göstərir. Qeyd etdiyimiz vəziyyətə ən bariz nümunə İkinci Qarabağ müharibəsi dövründə ordumuzun Ali Baş Komandanı, prezidentimiz İlham Əliyevin etdiyi çıxışları və verdiyi müsahibələrini qeyd edə bilərik. Cümlənin informativ təbiətindən məharətlə istifadə edən prezidentimizin nitqində maraqlı cümlələrlə qarşılaşırıq. İlham Əliyevin nitqində tez- tez həm cəmiyyətin real həyatı ilə bağlı informasiyalar, həm də siyasi informasiyalar dinləyicilərə çatdırılır. Prezidentimizin bu qəbildən olan çıxışları iki əsas istiqamətdə araşdırıla bilər:

1. Real informasiyalar. Bu tip informasiyalar faktlar və statistikaya əsaslanan rəqəmlərlə zəngin olur. Buraya ölkənin iqtisadi göstəriciləri, hərbi potensial və müdafiə ilə bağlı faktlar, diplomatik uğurlar və beynəlxalq tərəfdaşlıqlarla bağlı çıxışlar aid edilə bilər. Bu tip çıxışlardakı cümlələrdə semantika ilə ifadə olunan informasiya üst- üstə düşür.

2. Siyasi informasiyalar. Bu tip informasiyalar isə daha çox nitqdəki ideoloji mövqeyi, ölkə daxili və xarici siyasətlə əlaqədar şərhləri əhatə edir və ölkənin beynəlxalq arenada mövqeyini gücləndirmək məqsədi daşıyır. Buraya Qarabağ məsələsi, Azərbaycanın ərazi bütövlüyü, Ermənistanla münasibətlər, regiondakı güc balansı və s. kimi məsələlərlə bağlı prezidentin çıxışlarını və müsahibələrini aid edə bilərik. Bu tip çıxışlardakı cümlələrdə çox vaxt cümlənin semantikası ilə ifadəsi nəzərdə tutulan informasiya bir- birinə uyğun gəlmir. İlham Əliyevin müharibə dövründəki çıxışlarında və müsahibələrində cümlənin informativliyindən məharətlə istifadə etməsi onun kommunikasiya bacarıqlarını və strategiyalarını əks etdirir. O, çıxışlarında qısa, lakin məzmunlu cümlələrdən istifadə edir, özünə ünvanlanan sualları konkret faktlarla dəstəkləyir və dərin məna ifadə edən cümlələr qururdu. Aktual məlumatlar və dövlətin mövqeyini ifadə edən cümlələr bir neçə dəfə təkrar edilərək vurğulanırdı. Prezidentimizin nitqindəki cümlələr həm diplomatik, həm də informativ idi. Cümlə

quruluşları hamının başa düşəcəyi şəkildə aydın və anlaşıqlı qurulurdu. Hər bir nitqin sonunda informativliklə bağlı yekun vurulur [2, 89].

Prezidentimizin İkinci Qarabağ müharibəsi dövründəki çıxışlarına nəzər saldıqda tez- tez *"Biz öz torpağımızda döyüşürük, vuruşuruq"* cümləsinin işləndiyini görürük [2, 60]. Verilmiş nümunə həmcins xəbərli bitkin sadə cümlədir. Müharibə dövründə bu cümlənin ifadə olunması ona dərin siyasi informativ yük qazandırır. Cümlədəki əsas informativ yük " öz torpağımızda" ifadəsində cəmlənir. İfadə cümlə daxilində aktuallıq qazanaraq xüsusi vurğu ilə deyilir. Prezidentin çıxışlarında müharibənin Ermənistan ərazisində deyil, "Dağlıq Qarabağ"da getdiyi dəfələrlə vurğulanaraq buraya " öz torpağımızda" deməklə bir daha bu ərazilərin əzəli və əbədi Azərbaycan torpağı olduğu dinləyicilərin diqqətinə çatdırılır. Situasiyaya əsaslansaq, həmin dövrdə Ermənistan tərəfi əsassız olaraq Azərbaycanı özlərinə qarşı qəsbkarlıqda günahlandırır, güya Azərbaycan tərəfindən Ermənistanın ərazi bütövlüyünə toxunulurdu. Lakin bu faktdır ki, döyüşlər yalnız əzəli torpaqlarımız olan və Ermənistanın işğalı altında olan "Dağlıq Qarabağ" ərazisində gedirdi. Prezidentimizin tez- tez ifadə etdiyi bu cümlədə ifadəsi nəzərdə tutulan informasiya "Qarabağ Azərbaycan torpağıdır" cümləsinin informasiyasına uyğun gəlir. Beləliklə, qeyd edə bilərik ki, cümlənin kim tərəfindən, hansı tarixi dövrdə, hansı situasiyada deyilməsi onun ifadə etdiyi informasiyaya öz təsirini göstərir.

Prezidentin nitqindən seçilən növbəti nümunə isə sintaktik omonimliklə bağlıdır.

*Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm. Qoymayın uşaqlarınızı. Nə işi var onların bizim torpağımızda?[2, 83]*

Nümunədə semantika və informasiya münasibəti diqqətimizi cəlb edən "Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm" cümləsidir. Nümunə həmcins xəbərli bitkin sadə cümlədir. Cümlənin semantikası aydındır, lakin ifadə etdiyi informasiya ikili xarakter daşıyır. Hər iki halda informasiyanın müəyyənləşməsində "də" bağlayıcısı mühüm rol oynayır. Birinci halda "də" sözündə iştirak semantikası qüvvətlidir. Yəni buradan belə anlaşılır ki, prezidentdən əvvəl də erməni xalqına bu məsələ ilə bağlı müraciətlər olunub, indi isə prezident özü şəxsən erməni xalqına müraciət edir. İkinci halda isə "də" bağlayıcısında iştirak semantikası hiss olunmur. Sanki cümlədəki informasiyanın təsir gücünü artırır. Bu halda artıq prezidentdən əvvəl bu fikrin başqaları tərəfindən deyilməsindən söhbət getmir. Bu situasiyada prezident öz növbəsində erməni xalqına müraciət etməsi barədə məlumat verir. Cümlədə hansı informasiyanın ifadə olunması isə kontekstə və situasiyaya əsasən müəyyənləşir. Belə ki, cümlədə ifadəsi nəzərdə tutulan informasiya ikinciyə uyğundur. Prezidentimizin nitqindəki cümlələr dərin siyasi strategiya daşıyırdı. Necə ki, cəbhədə əsgərlərimiz silahları ilə, qolunun qüvvəti ilə düşmənlə vuruşub, onun canına vəlvələ salırdısa, prezidentimiz də bütün çıxışlarında qələbəyə inamını ifadə edərək, qarşı tərəfin zəifliyini, gücsüzlüyünü, qorxaqlığını onların üzünə vururdu.

*Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım, görüm indi andiçmə mərasimi harada keçiriləcək. Yas mərasimi keçiriləcək [3].*

Nümunədə ikinci cümlənin semantika və informasiyası xüsusi yanaşma tələb edir. Cümlənin semantikasının müəyyənləşməsində "baxım görüm" ifadəsi mühüm rol oynayır. Bu ifadənin qrammatik mənasına əsasən cümləni həm sadə, həm də tabeli mürəkkəb cümlə kimi fikirləşə bilərik. Əgər "baxım görüm" sözlərini ədat kimi fikirləşsək, onlar əmr semantikası daşıyaraq cümlənin təsir gücünü artırmağa xidmət edir. Bu halda nümunə sadə cümlədir və cümlənin semantikasında "qəzəb, hiddət, hədə- qorxu" çaları qüvvətlidir. Burada kommunikator "harada" sualını cümlədə işlətməklə "andiçmə mərasiminin keçiriləcəyi yeri" soruşmaq məqsədi daşımır. Nümunədə "harada" sualı "heç yerdə" ifadəsinə bərabər semantik yük daşıyır. Bu hal əslində dilimizdə geniş yayılıb. "Kim, hara" kimi suallar cümlədə bəzən "heç" ədatına bərabər semantik yük daşıya bilir. Məsələn:

*Tapşırıqları yazıb qurtardı ?*

- *Hardan?*

Göründüyü kimi, nümumədə "hardan" sualı "yer, məkan" semantikası ifadə etmir, sadəcə, dialoqun sual cümləsinə inkar cavabı verməyə xidmət edir. Eyni hal bu cümlədə də ödənir. "Hədə- qorxu" semantikası ilə ifadə olunan cümlədə ifadəsi nəzərdə tutulan informasiya "Heç yerdə andiçmə mərasimi keçirə bilməyəcəklər", "Biz onlara andiçmə mərasimi keçirməyə qoymayacağıq" cümlələrinin informasiyalarına uyğun gəlir . Kontekstə və situasiyaya nəzər saldıqda cümlənin semantika və informasiyasının qeyd etdiklərimizə uyğun gəldiyini görürük. Çünki prezidentimiz işğal altında olan Azərbaycan torpaqlarında qondarma rejimin andiçmə mərasimini saxtakarlıq və xalqımıza qarşı təhqir hesab edərək, qarşı tərəfin məğlubiyyətini, qondarma rejimin süqutunu və bir daha bərpa oluna bilməyəcəyini hiddət, qəzəb və qətiyyətlə onların üzünə vurur. Eyni zamanda bu cümlənin semantikasında "özünə inam, arxayınlıq" kimi semantik çalarlar da öz əksini tapır. "Görüm baxım" ifadəsinə prezidentimizin İkinci Qarabağ müharibəsi dövründəki çıxışlarında tez- tez rast gəlirik. Məsələn; *İndi baxım görüm nə şərt qoyursan bizə! İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Get köçür, baxım görüm necə köçürəcəksən!* və s. Çıxışlarında bu ədatlara üstünlük verilməsi kommunikatorun gücünə, qorxmazlığına, özgüvəninə işarə edir ki, sadaladığımız bu xüsusiyyətlərin hamısı Ali Baş Komandanımızda vardır. Kontekstə əsasən cümlənin semantika və informasiyası qeyd etdiklərimizə uyğundur. Lakin cümlənin semantikası fərqli situasiya və kontekst daxilində başqa cür də düşünülə bilər. "Baxım görüm, indi andiçmə mərasimi harda keçiriləcək?" deyildikdə cümlədəki "görüm" sözünə müstəqil mənalı leksik vahid kimi yanaşsaq, cümlənin həm semantikası, həm də ifadəsi nəzərdə tutulan informasiya birincidən fərqlənəcək. Birinci halda nümunə sadə cümlə olduğu halda, ikinci halda cümlədə iki qrammatik əsasın varlığı onun

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 81-89*

mürəkkəb cümlə olduğunu deməyə əsas verir. "Baxım görüm" baş cümlədir və bu cümlədən doğan "nəyi?" sualı "İndi andiçmə mərasimini harda keçirəcəklər" budaq cümləsinin köməyi ilə cavablanır. Baş cümlədən doğan "nəyi?" sualına əsasən nümunənin tamamlıq budaq cümləli tabeli mürəkkəb olduğunu müəyyən edirik. Bu halda nümunə sual cümləsidir və kommunikator andiçmə mərasiminin harada keçirilməsi ilə bağlı informasiya almaq istəyir. Bu zaman cümlənin semantikası və ifadə olunan informasiya bir- birinə uyğun gəlir. Cümlənin ifadə etdiyi informasiya "Andiçmə mərasiminin harada keçiriləcəyini görmək istəyirəm" cümləsinə uyğundur. Kommunikatorun şifahi nitqindən götürülmüş cümləni iki fərqli semantikada və bunlara müvafiq olaraq iki fərqli informasiyasının ifadəsində fikirləşə bilirik. Belə ki, cümləni tələffüz edərkən fasilələrin, tonun, durğunun dəyişməsi cümlənin semantikasına və daşıdığı informativ yükə öz təsirini göstərir. Kontekstə və situasiyaya müraciət etdikdə görünür ki, verilmiş cümlə torpaqlarını işğal etmiş dövlətə qarşı, müharibə gedən dövrdə prezident tərəfindən deyildiyindən, təbii ki, burada kommunikatora düşmən ölkənin andiçmə mərasimi keçirəcəyi yer maraqlı ola bilməz.

Müharibə dövründəki çıxışlarına nəzər saldıqda prezidentin xarici mətbuat nümayəndələrinə verdiyi müsahibələr də xüsusi maraq doğurur. Xarici mətbuat nümayəndələrinin Azərbaycana qarşı ədalətsiz mövqeyi, bizi işğalçı dövlət kimi qiymətləndirmə meyli və bir çox əsassız ittihamları prezidentimiz tərəfindən əsaslı dəlillər, aydın və anlaşıqlı cümlələrlə məharətlə və qətiyyətli şəkildə təkzib edilir.

*Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizlənmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?*

- *Biz ermənilər deyilik [6].*

Nümunədə "Biz ermənilər deyilik" cümləsinin ifadə etdiyi informasiya tamam fərqli görünür. Cümlənin semantikası nə qədər sadə və aydın olsa da, cümlədə ifadəsi nəzərdə tutulan informasiya bir o qədər mürəkkəb və xüsusi diqqət tələb edəndir. Qarşı tərəf kommunikatordan "Dağlıq Qarabağ"dan erməni vətəndaşlarının çıxarılıb- çıxarılmayacağını soruşur. Verilmiş sual cümləsinə ya təsdiq və inkar ədatları ilə, ya da "Biz Dağlıq Qarabağda erməni vətəndaşlarına qarşı heç bir etnik təmizlənmənin aparılmayacağına zəmanət veririk/ vermirik" şəklində cavab verilməli idi. Kommunikatorun işlətdiyi cavab cümləsi öz daxilində dərin informativ yük gizləyir. Cümlənin informativliyinin anlaşılması dinləyicidən xüsusi dünyagörüş və tarix biliyi tələb edir. Doğrudur, cümlənin dərin qatlarında gizlənən informasiyanın anlaşılması Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə və əməllərinə şahid olanlar, bu haqda məlumatı olanlar üçün o qədər də çətin deyil. Lakin baş verən münaqişənin real səbəblərini bilməyən və ya bundan tamamilə xəbərsiz olanlar üçün informasiya anlaşılmaz qalacaq. Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən nəinki Dağlı Qarabağ ərazisində, eyni zamanda Ermənistanın tərkibində olan tarixi Azərbaycan torpaqlarında yaşayan Azərbaycan-

lılara qarşı etnik təmizlənmənin aparılması, silah, zor gücü ilə insanların yurd- yuvalarından didərgin salınması hamıya məlumdur. "Biz ermənilər deyilik" deməklə Azərbaycan Respublikası tərəfindən Dağlıq Qarabağda etnik təmizlənmənin həyata keçirilməyəcəyi ilə bağlı informasiyanı qarşı tərəfə çatdırır. Cümlədəki informativ yük kommunikatorun çıxışının davamında aydınlaşır və açılır;

*Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq.* Prezidentin müsahibələrində xüsusi məntiqilik izlənilir. Qarşı tərəfdən istədiyi cavab almaq üçün xüsusi yol seçir. Seçdiyi sual cümləleri qarşı tərəfin planını üzə çıxarır. Cümlələrin daxilində dərin semantik məzmun və siyasi informativlik vəhdət təşkil edir. Müsahibənin sonunda kommunikator (prezident) öz məqsədinə nail olur.

- *Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir? Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.*
- *Siz əsgərlərlə danışmısınız?*
- *Bəli.*
- *Döyüş meydanında?*
- *Xeyr, döyüş meydanında yox.*
- *Bəs harada?*
- *Bakı şəhərində.*
- *Onlar burada, Bakıda döyüşürlər?*
- *Xeyr, xeyr. Bununla belə, onlar burdadırlar.*
- *İndi burada alman əsgərləri də ola bilər.*
- *Siz birgə hərbi təlimlər keçirirsiniz...*
- *Bəli, bəli , keçiririk [1, 262].*

Nümunədə prezident İ. Əliyevlə xarici jurnalistin dialoqu öz əksini tapır. İ. Əliyev qarşı tərəfin yalan informasiyasını sualları ilə ifşalayır. Hər sonrakı sual özündən əvvəl ünvanlanan sualın məntiqi davamıdır. Türk əsgərlərinin Azərbaycan tərəfindən vuruşduğunu iddia edən və onlarla görüşdüyünü söyləyən jurnalistə prezident tərəfindən "Döyüş meydanında?" sualı ünvanlanır. Verilmiş sual cümləsi elliptik sadə cümlədir və kontekstə əsasən "Siz türk əsgərlərlə döyüş meydanında danışmısınız?" şəklində bərpa edə bilərik. Cümlənin daşıdığı informativ yük dərin məntiqi təfəkkürə əsaslanır. Belə ki, əgər türk əsgərləri Azərbaycan tərəfindən ermənilərə qarşı vuruşurlarsa, deməli, onlar jurnalistlə döyüş bölgəsində söhbət etməli və müsahibə verməli idilər. Jurnalist isə "Xeyr, döyüş meydanında yox" cavabını verməklə öz dili ilə öz yalanını ifşa edir. Prezident tərəfindən ünvanlanan növbəti "Bəs harada?" sual cümləsi də öz növbəsində elliptikdir. Cümlənin

buraxılmış xəbərini kontekstə əsasən "danışmısınız" sözü ilə bərpa edirik. Cümlənin semantikası aydındır. Belə ki, kommunikator (prezident) qarşı tərəfdən harada türk əsgərləri ilə danışdıqları ilə bağlı məlumatı dəqiqləşdirmək istəyir. Cümlənin semantikasının dərin qatlarına ensək, burada "təkid" semantik çaları qüvvətlidir. Prezidentimiz bu sualı verməklə qarşı tərəfin söz atəşini tamamilə susdurur. Necə ki, müharibədə əsgərlərimiz özlərinin və hərbi texnikanın gücü ilə qarşı tərəfi susdurur və onlara üstün gəlirlər, prezidentimiz də bütün müsahibələrində ona ünvanlanan ədalətsiz, yalan, əsassız iddialara söz silahı ilə adekvat cavab verir. Verilmiş cümlə yarımçıqdır. Ona görə də cümlənin həm semantikası, həm də ifadəsi nəzərdə tutulan informasiyası xüsusi diqqət və tamamlanma tələb edir. Kontekstə əsasən cümlənin buraxılmış üzvlərini bərpa etdikdən sonra "Biz türk əsgərləri ilə Bakı şəhərində danışmışıq/ söhbət etmişik" cümləsi alınır. Əgər müsahibə Bakıda alınıbsa, deməli, türk əsgərləri Bakıda döyüşür. Lakin müharibə Dağlıq Qarabağ ərazisində gedir. Prezidentin qarşı tərəfə ünvanladığı bütün suallar bir- birinin məntiqi davamı kimi səsləşir. Cavabına əmin olduğu bu suallar bir silsilə şəklində qurularaq qarşı tərəfə ünvanlanır və hər dəfə istədiyi cavabı ondan alır. Bu da bir daha prezidentin dərin düşüncə tərzinə, yüksək məntiqi təfəkkürünə işarə edir. Sanki bir səhnə qurur və bütün çıxışların necə idarə olunacağını qabaqcadan bilir. Fikrimizcə, bütün bu sual cümlələrinin birlikdə daşıdığı informativ yük "Bizim orduda türk əsgərləri vuruşmur" cümləsinin informasiyasına bərabərdir.

Prezident İ. Əliyevin İkinci Qarabağ müharibəsi dövründəki istər çıxışlarında, istərsə də jurnalistlərə verdiyi müsahibələrində qurduğu cümlələrin informativliyi özündə aşağıdakı xüsusiyyətləri birlə°dirir.

1. Əhaliyə dəqiq və adekvat məlumatın çatdırılması. Prezidentimizin qurduğu cümlələr qısa və dolğundur, dinləyiciyə müharibənin gedişi, qazanılan zəfərlər və döyüşlərin nəticələri haqqında dəqiq informasiya çatdırır.
2. Cümlələrdə müharibənin hüquqi və siyasi əsaslandırılması. Prezidentin çıxışlarında dəfələrlə apardığımız müharibənin hüquqi əsaslara söykəndiyi, müharibənin tarixi Azərbaycan torpaqlarında getdiyi təkrarlanır. Bu da cümlənin hüquqi və siyasi informativliyini gücləndirir.
3. Cümlənin həm daxili, həm də xarici auditoriyaya yönələn məzmun planı. Cümlədəki informativlik həm xalqımıza müharibədəki üstünlüyümüzü çatdırır, həm də dünya ictimaiyyətinə Ermənistanın beynəlxalq hüquqa zidd təcavüzkar siyasəti əsaslı dəlillərlə sübut edilirdi.
4. İnformasiyanın emosional çalarlarla ifadəsi. Prezidentin nitqində tez- tez xalqın əhvalını yüksəldəcək cümlələrlə qarşılaşırıq. Məsələn; *"İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur onları. Nə oldu, Paşinyan? Yol çəkirdin Cəbrayıla? Rəqs edirdin. Nə oldu bəs status? Cəhənnəmə getdi status. Gora getdi status. Gorbagor oldu status. Yoxdur*

*status [4]."* Bu tip xalq dilinə, xalqın ruhuna yaxın olan ifadələrin cümlə daxilində istifadə olunması cümlənin informativliyini gücləndirir. .

İkinci Qarabağ müharibəsi dövründə İlham Əliyevin nitqlərində bir sıra ifadələr geniş populyarlıq qazandı. Bu ifadələr həm hərbi, həm də siyasi mənaları ilə Azərbaycan cəmiyyətində və beynəlxalq arenada əks-səda doğurdu. Xalq ruhundan gələn bu tip ifadələr həm xalqımızı qələbəyə ruhlandırır, həm də Ermənistan tərəfinin rəzilliyini, qorxaqlığını, məğlubiyyətini ifadə edirdi. Belə ifadələrdən biri də *"Biz onları iti qovan kimi qovuruq"* cümləsidir. Bir çox çıxışlarında prezident bu ifadəni işlədir. Xalq təfəkküründə "it" sözü ilə "it kimi sürünmək", "it kimi quyruq bulamaq", "it kimi yaltaqlanmaq", "it kimi hürmək", "it nəfsinə keçmək" kimi ifadələr var ki, bunların hamısında itin mənfi planda aciz, yaltaq və s. kimi mənfi xüsusiyyətləri vurğulanır və bu xüsusiyyətlər insanların üzərinə köçürülür. Prezidentin nitqində siyasiliklə xalq ruhunu sanki birləşdirir. Qarşı tərəfə qarşı bu cümlənin işlədilməsi, onların itə bənzədilməsi, onları it kimi qovduğumuz informasiyalarının dərin qatlarına ensək, cümlədən "Ermənilər qorxaqdır", "Onlar bizi görən kimi qorxub qaçırlar", "Onlar ərazilərimizdən öz xoşu ilə deyil, bizim əsgərlərin gücü ilə qovulurlar " "Erməni əsgərləri Azərbaycan əsgərlərinin qarşısında it qədər acizdirlər" kimi siyasi, eyni zamanda bir o qədər real informasiyalar ifadə olunur. Cümlə qarşı tərəfin zəifliyini, acizliyini əks etdirməklə yanaşı, ordumuzuin gücünü, əzəmətini ifadə edir. Prezidentin çıxışlarında məşhurluq qazanan, qarşı tərəfin canına qorxu salan növbəti cümlə *"Dəmir yumruq yerindədir!"* cümləsidir [5]. Bu ifadə Azərbaycan xalqının və ordusunun birliyini, gücünü simvollaşdırdı. Müharibə dövründə xalqın, ordunun bir amal ətrafında birləşərək yumruq kimi möhkəm, ayrılmaz bir bütöv yaratması və bu yumruq qarşı tərəfin başına endirilməsi ifadə olunur. İlham Əliyev bundan istifadə edərək, Azərbaycan dövlətinin düşmənə qarşı həm hərbi, həm də mənəvi gücünün rəmzi olaraq dəmir yumruğu vurğuladı. Bu, həm də müharibə bitdikdən sonra gələcəkdə hər hansı təxribatın cəzasız qalmayacağını xatırladan bir xəbərdarlıq idi. Bu ifadələr müharibənin gedişində və sonrasında geniş yayıldı, İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərbi uğurlarını simvolizə etdi. Prezidentin çıxışlarında qurduğu cümlələrin siyasi informativliyi xüsusi bir tərzdir. Bu, İkinci Qarabağ müharibəsi zamanı özünü daha qabarıq şəkildə göstərdi, dünya ictimaiyyətinin, siyasi təşkilatların diqqətini dövlətimizin mövqeyinə çəkməkdə və milli birlik ideyalarını qüvvətləndirməkdə mühüm rol oynadı.

**Nəticə.** Prezident İ. Əliyevin İkinci Qarabağ müharibəsindəki çıxışlarında və müsahibələrindən seçilmiş cümlə nümunələrində həm cəmiyyətlə bağlı real, həm də siyasi informasiyalar ifadə olunur. Real informasiyanın ifadəsinə xidmət edən cümlələrdə semantika ilə informasiya bir- birinə uyğun gəlir. Siyasi informasiyaların ifadəsinə xidmət edən cümlələrdə semantika ilə nəzərdə tutulan informasiya üst- üstə düşmür. Siyasi informasiyaların anlaşılması dinləyicidən məntiqi təfəkkür,

dünyagörüşü və tarixi, siyasi biliklər tələb edir. Cümlənin informativliyi dərin ictimai- siyasi məzmunu, tarixiliyi, məntiqilik və adekvatlığı ilə seçilir. İnformativlik kommunikatorun haqlı mübarizəsini, gücünü, üstünlüyünü ifadə etməklə yanaşı, qarşı tərəfin haqsızlığını, ədalətsizliyini, zəifliyini, acizliyini göstərmək məqsədi daşıyır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri. Dərs vəsaiti. Bakı, BDU, 2021, 304 s.
2. Cəfərov N. Sözümüzün Ali Baş Komandanı. Bakı, Elm və təhsil, 2021, 198 s.
3. https://lent.az/xeber/videolent/prezident-gorum-indi-harada-andicme-merasimi-kecirecek-arxiv-video-40587021
4. https://pravda.az/news/28768
5. https://president.az/az/pages/view/azerbaijan/karabakh2
6. https://yenicag.az/ilham-eliyev-biz-ermeni-deyilik-biz-eyni-qaydada-davranmayacagiq/

**Xülasə**

Sintaksisin əsas vahidi olan cümlədəki fikir müəyyən məqsədə xidmət edir. Kontekstdən və situasiyadan asılı olaraq cümlədə müəyyən informasiya ifadə olunur. Cümlənin informativ tutumu kommunikatordan, onun dünyagörüşündən, tarixi dövrdən asılı olur. İkinci Qarabağ müharibəsi dövründə dövlətimizin üstünlüyü təkcə hərbi sahədə deyil, eyni zamanda siyasi müstəvidə də özünü göstərdi. Buna səbəb isə prezident İlham Əliyevin cümlənin informativ təbiətindən məharətlə istifadə etməsi oldu. Məqalədə prezidentin İkinci Qarabağ müharibəsi dövründəki çıxışlarından, eyni zamanda milli və xarici mətbuat nümayəndələrinə verdiyi müsahibələrdən real və siyasi informasiyaların ifadəsinə xidmət edən cümlələr seçilmiş, onlardakı semantika və informasiya münasibəti tədqiqata cəlb olunmuşdur. Real və siyasi informasiyaların ifadə məqsədləri fərqləndirilmiş, cümlədəki informasiyaların adekvatlığı, daxili və xarici auditoriyayanın maraq dairəsinə uyğunluğu, informasiyanın emosional tərzdə verilmə məqsədi, tarixiliyi faktlara, beynəlxalq hüquqa əsaslanma kimi məsələlər şərh edilmişdir.

**Açar sözlər:** Qarabağ müharibəsi, prezidentin çıxışları, cümlə, siyasi informasiya, real informasiya.

**Simnar Alizade**

## INFORMATIVENESS IN PRESIDENT ILHAM ALIYEV'S SPEECH DURING THE SECOND KARABAKH WAR

**Summary**

The expression of the sentence, which is the basic unit of syntax, serves a certain purpose. Depending on the context and situation, certain information is

expressed in the sentence. The informative capacity of the sentence depends on the communicator, his worldview, historical period. During the Second Karabakh War, the superiority of our state was manifested not only in the military field, but also in the political field. The reason for this was the skillful use of the informative nature of the sentence by President Ilham Aliyev. In the article, sentences serving to express real and political information were selected from the president's speeches during the Second Karabakh War, as well as from interviews with national and foreign press representatives, and the semantics and information relationship in them were involved in the research. The goals of expressing real and political information are distinguished, the adequacy of the information in the sentence, the suitability of the interest of the internal and external audience, the purpose of providing the information in an emotional manner, historical facts, and international law are explained.

**Keywords:** Karabakh war, speeches of the president, sentence, political information, real information.

**Симнар Ализаде**

**ИНФОРМАТИВНОСТЬ В ПРЕДЛОЖЕНИИ РЕЧИ ПРЕЗИДЕНТА ИЛЬХАМА АЛИЕВА ВО ВРЕМЯ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ**

**Резюме**

Выражение предложения, которое является основной единицей синтаксиса, служит определенной цели. В зависимости от контекста и ситуации в предложении выражается определенная информация. Информативность предложения зависит от коммуникатора, его мировоззрения, исторического периода. В ходе Второй Карабахской войны превосходство нашего государства проявилось не только в военной, но и в политической сфере. Причиной этого стало умелое использование информативности приговора Президентом Ильхамом Алиевым. В статье из речей президента во время Второй карабахской войны, а также из интервью с представителями отечественной и зарубежной прессы были выбраны предложения, служащие для выражения реальной и политической информации, и исследованы семантика и информационная связь в них. Выделяют цели выражения реальной и политической информации, определяют адекватность информации в предложении, соответствие интересам внутренней и внешней аудитории, цель подачи информации в эмоциональной форме, исторические факты, нормы международного права. объяснил.

**Ключевые слова:** Карабахская война, выступления президента, приговор, политическая информация, реальная информация.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: F.e.d. prof. T. M. Hacıyev**
**tərəfindən çapa tövsiyə olunmuşdur**